*https://doi.org/10.30546/114578.2025.9.1046*

# SEYİD ƏZİM ŞİRVANİ: MİLLİ KİMLİK NÜMUNƏSİ

**Sakibə Ələsgərova**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
https://ORCID.org/ 0009-0001-6348-2460
*sakibaalesgerova@mail.ru*

**Xülasə**

XIX əsr Azərbaycan ədəbi-mədəni mühitinin yetişdirdiyi ən böyük şəxsiyyətlərdən biri Seyid Əzim Şirvanidir. Zəngin ədəbi irsi (qəzəl, rübai, qitə, müxəmməs, müstəzad, müsəddəs, təkbeyt, qoşabeyt və s.), eləcə də dərslikləri ("Rəbiül-ətfal" (1878), "Tacül-kütüb" (1883), mənzum hekayələri ("Misir şahzadələri", "Müctəhidin təhsildən qayıtması", "Molla və çoban", "Riyakar abid" və s.) bütün parametrlərdə yüksək təfəkkür intelleksiyasını əks etdirmək baxımından nümunədir. Klassik Şərq ədəbiyyatının mütərəqqi ənənələri üzərində köklənən sənətkar "gətirmək gərəkdir təzə üslubə köhnə dünyanı" deməklə tarixi-mədəni axarın dinamikasını etnoenerjinin kəsb etdyiyi milli kimlik məfkurəsinə dayanan oyanışlar baxımından diqqət önünə gətirir və yeniləşmələr müstəvisində təqdimə həssaslıq göstərirdi.

M.F.Axundzadənin (buraya A.Bakıxanov, M.Ş.Vazeh və İ.Qutqaşınlını da əlavə etmək olar) apardığı mücadilənin marifçilik aspekti və on doqquzuncu yüzilliyin ortaya qoyduğu siyasi-ideoloji kontekst, H.Zərdabinin "Əkinçi" qəzeti ilə nümayiş etdirdiyi milli mənsubluq missiyası bütün paradiqması ilə S.Ə.Şirvani və digər müasirlərinin timsalında bütövləşməklə gedilən yolun dönməzliyini nümayiş etdirir.

**Açar sözlər**. S.Ə.Şirvani, lirikası, mənzum hekayə, təmsil örnəkləri, pedaqoji fəaliyyəti, dərslikləri və s.

# SEYID AZIM SHIRVANI: AN EXAMPLE OF NATIONAL IDENTITY

**Sakiba Alasgarova**
*Azerbaijan State Pedagogical University*

**Abstract**

One of the greatest figures to emerge from the 19th-century Azerbaijani

literary and cultural environment is Seyid Azim Shirvani. His rich literary legacy − including ghazals, rubai, qit'as, mukhammases, mustazads, musaddases, single couplets, double couplets, etc. − as well as his textbooks (Rabi' al-Atfal (1878), Taj al-Kutub (1883)) and narrative poems ("The Princes of Egypt," "The Mujtahid Returns from Education," "The Mullah and the Shepherd," "The Hypocritical Worshipper," and others), serve as exemplary models reflecting a high level of intellectual and philosophical thought.

Rooted in the progressive traditions of classical Eastern literature, the artist − by declaring, "We must bring a new style to this old world" − highlights the dynamic flow of historical and cultural development grounded in the concept of national identity driven by ethno-energy. He approached renewal with sensitivity and brought forward cultural awakenings from the perspective of national consciousness.

The enlightenment struggle led by M.F.Akhundzadeh (to whom we may add A.Bakikhanov, M.Sh.Vazeh and I.Gutgashinli), as well as the socio-political and ideological context of the 19th century, and H.Zardabi's national mission expressed through the "Akinchi" newspaper, all come together in the person of Seyid Azim Shirvani and his contemporaries to reflect the irreversibility of the path taken.

**Key words:** S.A.Shirvani's lyric poetry, narrative poems, examples of fables, pedagogical activity, textbooks, etc.

## СЕЙИД АЗИМ ШИРВАНИ: ОБРАЗЕЦ НАЦИОНАЛЬНОЙ ИДЕНТИЧНОСТИ

**Сакиба Алескерова**
*Азербайджанский государственный педагогический университет*

**Резюме**

Одной из величайших личностей, выросших в литературно-культурной среде Азербайджана XIX века, является Сеид Азим Ширвани. Его богатое литературное наследие (газели, рубаи, касыды, мухаммасы, мустазады, мусаддасы, байты, двойные байты и др.), а также учебники («Рабиуль-этфал» (1878), «Таджюль-кутуб» (1883)), стихотворные рассказы («Египетские принцы», «Возвращение мюджтехида из учёбы», «Мулла и пастух», «Лицемерный аскет» и др.) становятся образцом высокого уровня интеллектуального мышления во всех аспектах.

Опираясь на прогрессивные традиции классической восточной

литературы, поэт, говоря «нужно принести новый стиль в старый мир», акцентировал внимание на динамике историко-культурного потока с точки зрения пробуждений, основанных на идеологии национальной идентичности, пронизанной этноэнергией. Он с особой чувствительностью подходил к процессам обновления и культурного самовыражения.

Просветительский аспект борьбы М.Ф.Ахундова (сюда можно добавить и А.Бакиханова, М.Ш.Вазеха, И.Куткашинли), а также политико-идеологический контекст XIX века и миссия национальной принадлежности, представленная газетой Г.Зардаби «Экинчи», в лице С.А.Ширвани и его современников приобретают целостность и демонстрируют необратимость выбранного пути.

**Ключевые слова:** лирика С.А.Ширвани, стихотворные рассказы, примеры басен, педагогическая деятельность, учебники и др.

## Giriş/Introduction

S.Ə.Şirvaninin anadan olmasının 190 ili tamam olur və onun zəngin ədəbi irsi müxtəlif kontekstlərdə elmi-pedaqoji mühitin araşdırmalarının probleminə çevrilmiş və bu gün də özünün aktuallığı ilə nəzər-diqqəti cəlb edir. On doqquzuncu əsrin yeniləşən ahənginə köklənən sənətkar klassik üslubda yazdığı sənət örnəkləri ilə yanaşı, dövrün, mühitin ümumi mənzərəsini əks etdirən nümunələr yaratmağa da həssaslıq göstərmişdir. Zəngin yaradıcılığı bütünlükdə ictimai-siyasi, ədəbi-mədəni mühiti əhatələmək və baş verənlərə açıq mövqe nümayiş etdirmək baxımından mühüm əhəmiyyət kəsb edir. Şərq və Qərb mədəniyyətinə dərindən bələd olan sənətkar dini və dünyəvi elmləri mənimsəməklə yanaşı, həm də yeni tipli məktəblərin problemlərinin həllində gərəkli işlərə imza atmışdır.

**Ədəbi irsinin məzmun və janr səciyyəsi**. Şərqin min illər boyu müəyyənləşdirdiyi kristal mədəniyyət və düşüncə genefondunun yeni mərhələyə daxil olması məhz on doqquzuncu yüzilliyin ideya və məfkurə mücahidlərinin ortaya qoyduğu konsepsiya ilə reallaşır. S.Ə.Şirvani bu sırada həm klassik ənənənin, həm də yeniləşmənin ümumi ortaqlıq məqamlarını özündə nümayiş etdirmək gücündə olan ən böyük maarifçilərdən idi. "*O, məhəbbəti tərənnüm edən Füzuliyanə qəzəlləri ilə istedadlı lirik şair, maarifçi şeirləri ilə, təmsil, mənzum hekayə və satiraları ilə görkəmli realist sənətkar kimi tanınmışdır. Onun Zakirlə Sabir arasında körpü təşkil edən satirik şeirləri XX əsr satirik poeziyasının ideya-bədii mənbələrindən biri olmuşdur*" [Qasımzadə, 1966:425]. S.Ə.Şirvani yaradıcı əzəməti və yüksək sənət intelleksiyası ilə M.Füzulidən

sonra yetişən ən böyük şəxsiyyətlər sırasındadır. Bir qədər dəqiq desək, on doqquzuncu əsrin Füzulisidir.

Lirik şeirlərinin mövzu mündəricəsi, mənzum hekayələri, satiraları, təzkirəçilik sahəsində gördüyü gərəkli işlər, məktəbdarlıq fəaliyyəti, dərslikləri, "Beytüs-Səfa" ədəbi məclisi və s. bütün tərəflərilə ədibin yaşam fəlsəfəsini, dünyagörüşünü, həyata baxışının siyasi-ideoloji konseptini faktlaşdırır. "*Sərvəra, üç aydı getmişdim Dağıstan seyrinə, bu səfərdən olmuşam xeyli pərişan, gəlmişəm"* deyən sənətkar məsələnin mahiyyətinə varmaqla baş verənlər baxımından səbəblərini öz yaxınları timsalında "görmüşəm biganə dəstində babamın mülkünü" mənalandırmaqla açıqlayır. *"XIX əsrin ikinci yarısından sonra Azərbaycanda qüvvətlənən maarifçilik hərəkatının görkəmli nümayəndələrindən biri kimi tanınan Seyid Əzim M.F.Axundovun başladığı ədəbi inqilabı poeziya sahəsində davam və inkişaf etdirmiş, maarifçi realist şeirin dəyərli nümunələrini yaratmaqla doğma ədəbiyyatımıza misilsiz xidmət göstərmişdir*" [Məmmədov, 2005:4]. On doqquzuncu yüzilliyin yeniləşmədə özünü göstərən tarixi-mədəni diaxroniyası Avropa və bütün dünyada əlavələrlə, yeni mövqe və düşüncə axınlarının ləngərli gedişləri ilə səciyyələnir. Çar Rusiyasının Qafqazı işğal siyasəti və bunu reallaşdırması lazımı addımların atılmasını və prosesin yeni şəraitə uyğun qiymətləndirilməsini zəruriləşdirirdi. S.Ə.Şirvani də mütərəqqi dünyagörüşlü ziyalı kimi prosesin mahiyyətini bilib dərk etdiyindən dünyanın yeniləşən axarına köklənməyi qaçılmaz hesab edirdi. Mürəbbe, müxəmməs, müstəzad, müsəddəs, satira, mənzum hekayə və s. örnəkləri bunun tipik nümunəsidir.

*Var neçə şair ki, rəsmi-şeri məndən öqrənib,*
*Onların ustadiyəm, aləm bilir, bilittifaq.*
*Mən atalıq etmişəm, onlar mənə övladdır* [Şirvani, 2005:366].

"Beytüs-Səfa", eləcə də ədəbi-mədəni mühitin digər yaradıcı simaları ilə təmasları və apardığı mücadilə bütün tərəflərilə geniş auditoriyaya təsirsiz qalmırdı. Əksinə, prosesin ümumi axarında müsbət təsəvvür formalaşdırmaq kontekstində əsaslı bir müəyyənliyi, dönməzliyin gedişini açıqlayır. Dövrün ümumi ahəngi və sərgilədiyi təsəvvür mühit və şəxsiyyət timsalında yaşananları və onun keçmiş, xatirələrlə dolu olacaqlar timsalında yaddaş hadisəsi səviyyəsində göz önündə canlandırır.

*Ey xoş ol günlər ki, bəzmimdə nigarım var idi,*
*Zövqi-didarilə könlümdə qərarım var idi,*
*Bir üzarı mah, zülfü müşkbarım var idi,*

*Ləbləri şəkkər, üzü gül tacdarım var idi,*
*Bir cəmalı rəşki-bağü gülüzarım var idi,*
*Sünbülüm, sərvim, gülüm, bağım, baharım var idi*
[Şirvani, 2005:369].

Sözün məna yaddaşı, misranın fikir tutumu, mətn fenomenliyi ədibin həyata baxışı, canlandırma üsullarının aydınlığı və mövqe səlisliyi ilə diqqət önünə gəlir. "Billah örtülməz məzarım ahü zarımdan mənim" deyən sənətkar daha qətiyyətlə və həm də aydınlıqla "baş çəkər topraqdən əflakə suzü şivənim" söyləyirdi. Çox doğru deyirlər ki, "şairin vətəni onun öz ana dili, ana dilinin hər kəlməsi, hər səsidir, hər söz elə vətənin bir parçasıdır, hər sözün yaddaşı vətənin və xalqın tarixidir" [Nəbiyev, 1976:164]. S.Ə.Şirvaninin yaradıcılığı bütün səviyyələrdə dövrü, mühiti, ədəbi-mədəni axarın ümumi mənzərəsini aydınlaşdırmaq baxımından əsaslı qaynaqdır. Ayrı-ayrı poetik biçimli mənzumələri mətn axarında əsaslı bir təsəvvürlə, ciddi bir müəyyənliklə diqqət önünə gəlir.

Ədəbiyyat, ümumiyyətlə, ənənə səviyyəsində əsaslı zənginləşmələri, dövrün, mühitin problemlərini əks etdirmək baxımından müstəsna spesifiklikləri sərgiləyir. Klassiklərdən gələn möhtəşəmlik, yaradıcılıq axtarışları və əldə olunan uğurlar mühit səviyyəsində genişlənmələrə əsas olur. S.Ə.Şirvaninin qəzəl, rubai, qitə, mürəbbe, müsəddəs, müxəmməsləri və s. eyni ruhu və ahəngi ehtiva etməklə, həm də əlavələrin və özünəməxsusluqların nümunəsi olaraq spesifikləşir. "Olurmu", "Oldu", "Məni", "Saqi", "Qaldı", "Etmə dəxi", "Olaydı", "Saldı", "Sarı" və s. onlarca poetik örnəkləri təkcə məzmun baxımından deyil, həm də ifadə intelleksiyası ilə mükəmməllik sərgiləyir.

*Axiri-dəhr nə mümkündü fənadən qeyri,*
*Kimsə baqi degil aləmdə xudadən qeyri.*

*Aləmi-faniyə əl vurma ki, yoxdur səməri,*
*Eyləmə hiç tələb mülki-bəqadən qeyri.*

*Bivəfa mahlərə vermə könül, xar olusan,*
*Görməsən dərdü qəmü cövrü cəfadən qeyri*
[Şirvani, 2005:283].

Canlandırma üsulları, fikri çatdırma modelləri və yaradıcı düşüncəsinin dünyagörüşündə özünü nümayiş etdirən məsələlər metamodelləşmədə bir mükəmməllik nümunəsi olmanı diqqət önünə gətirir. Məlum olduğu kimi, "fərdi üslubun başlanğıcında şeirin forma-üslub özünəməxsusluğunun orijinallığı

dayanır və bu özünəməxsusluq şairin poetika müəyyənliyinin əsas əlamətini təşkil edir. Fərdi üslubun poetik bənzərsizliyinin əsasında və məğzində müəyyən bir konsepsiya mövcuddur ki, onun bütövlükdə daxili xassəsidir: bu şairin təkcə estetik problemi deyil, eyni zamanda dünyagörüş problemidir, şairin gerçəkliyə poetik baxım yeniliyinin təzahürüdür" [Hüseynov, 2008:113]. S.Ə.Şirvani istedadı fərdi üslub özünəməxsusluğunun meyar və prinsipləri kontekstində onun həm də dünyagörüşünün bir modeli səviyyəsində reallaşır. Yüksək ideallara köklənən sənətkar bədii-estetik məfkurəsinin verdiyi imkanlardan çıxış etməklə orijinal nümunələr yarada bilmək imkanlarını əvvəldən axıra qədər ortaya qoya bilir. Yuxarıdakı nümunə də məhz bu düşüncə zənginliyinin örnəyi olaraq ortaya çıxmışdır. Fikrin çatdırılma mexanizmləri və janr konstruksiyası bütün sxemləri ilə sənətkarın dünyagörüşünü ifadəyə yüklənməklə tərbiyəvi mahiyyətilə ayrıca bir məzmun kəsb edir, "kimsə baqi degil aləmdə xudadən qeyri" düşüncəsinin alt qatında dayanan təsəvvürləri sıralayır.

*Güzərin düşsə dəri-dilbərə, ey badi-səba,*
*Yetir ərzim o güli-əhmərə, ey badi-səba!*

*Güli-cəfər kimi rəngim saralıb firqətdən,*
*De bu halı o güli-cəfərə, ey badi-səba!* [Şirvani, 2005: 283].

Klassik Şərq poeziyasının zənginlikləri üzərində pərvəriş tapan və onun mahiyyətində olanlara ruhu ilə bağlanan ədib yüksək təfəkkür intelleksiyası ilə on doqquzuncu yüzillikdə ona əlavə özünəməxsusluqlar qata bilmək imkanları ilə diqqət önünə gəlir. N.Gəncəvidən, X.Şirvanidən, H.Təbrizidən, Z.Şirvanidən, İ.Nəsimidən, Kişvəridən, Həbibidən, Ş.İ.Xətaidən, M.Füzulidən, S.Təbrizidən, M.P.Vaqifdən, M.V.Vidadidən, Q.Zakirdən gələn yolun ümumi ahəngi və nəbzinin pulsu on doqquzuncu yüzilllikdə daha çox S.Ə.Şirvanidə özünü nümayiş etdirir. Çeşidli poetik biçimli nümunələri bunun örnəyi olaraq bütün səviyyələrdə özünü nümayiş etdirir.

*Qəm eyləmərəm çərx ala simu zəri məndən,*
*Tək eyləməsin dur meyi-əhməri məndən,*
*Can cövhəridir, almayın ol cövhəri məndən,*
*Ey saqi, diriğ etməgilən sağəri məndən,*
*Bir cam ilə rəf eylə bu dərdi-səri məndən.*

*Kimdir o ki, hiç olmaya aləmdə günahi,*
*Var bu qapının mən kimi çox ruy-siyahi,*
*Hərçənd ki, çox eyləmişəm feli-mənahi,*

*Mən anladığım əfv isə, əfv eylər ilahi.*
*Sorma günəhim qeyrdən, al dəftəri məndən*
[Şirvani, 2005:379].

Maarifçi realist şeirin ümumi ruhuna köklənən sənətkar klassik ənənədən gələnlərin polifonik ahəngində əlavə ovqat yaratmağa qabil olan şəxsiyyətlərdəndir. Yaxın və Orta Şərqi gəzib dolaşan və müxtəlif ədəbi-mədəni mühitlərlə təmasda olan sənətkar özü də həmin zənginliyin təmsilçisi kimi olanlara öz münasibətini bildirmək məramında görünür. Ayrı-ayrı bədii örnəklərin formalaşdırdığı təsəvvür, verdiyi bilgi bunun bir problem müstəvisində açılmasını əsasa çevirir. Şərq və Qərb müstəvisində yaşananlar və yeniləşmənin ümumi xarakteri onun maarifçilik görüşünün konsepsiyasını əsaslı şəkildə nümayiş etdirir. "Əkinçi", "Ziya" ("Ziyayi-Qafqaziyyə"), "Kəşkül" mətbuat orqanlarında vaxtaşırı çıxışları, H.Zərdabi ilə yazışmaları və dövrün problemləri baxımından apardığı böyük (həm də savab) işlər sırf milli özünüdərkin nümunəsi olaraq örnəyə çevrilir. Mətbuat səhifələrində zəmanəsinin müxtəlif məsələlərinə aid publisist yazılar dərc etdirir.

**Didaktik məzmunlu əsərləri və maarifçi dünyagörüşü**. "Qafqaz müsəlmanlarına xitab", "Təlim-tərbiyə haqqında", "Həsən bəy Məlikov Zərdabiyə", "Puşkinə heykəl qoyulması münasibətilə" və s. əsərləri şairin qabaqcıl ideya və düşüncə carçısı olaraq xalqı gedən proseslərin dönməzliyinə kökləmək düşüncəsindən çıxış edir. Öyüd-nəsihət, təmsil, didaktik məzmun daşıyan mənzum hekayələri müxtəlif aspektlərilə şairin maarifçilik dünyagörüşünü əks etdirən nümunələrdir. Şərq ədəbi-mədəni təfəkküründən gələnlərə köklənən bu örnəklər tərbiyəvi mahiyyəti və hadisə, epizod xarakteri ilə min illərin dünyagörüşünü ehtiva etmək baxımından əvəzsizlik sərgiləyir. "*Şair klassik ədəbi ənənələrdən istifadə edərək əsərlərində nəcib mənəvi keyfiyyətlər, elmə, təhsilə coşqun maraq aşılayır. Didaktik məzmunlu öyüdlər və mənzum hekayələr S.Ə.Şirvaninin maarifçilik baxışlarını tədqiq etmək cəhətdən maraqlıdır*" [Namazov, 2007:92]. Xalq arasında dolaşan əhvalat və hekayətlər, zəngin folklor yaddaşı, səyahət zamanı eşitdiyi didaktik söhbətlər, rəvayətlər, məsəllər və s. onun maarifçilik dünyagörüşünə müxtəlif formalarda öz təsirini göstərir. "Molla və çoban", "Müctəhidin təhsildən qayıtması", "Riyakar abid", "Ruhanilik təhsili", "Xan və dehqan", "Sadəlövh nökər" və s. bədii nümunələr janr tutumu və məzmun ifadəliliyinin mükəmməlliyi baxımından yüksək təsiredicilik örnəyi olaraq faktlaşır. "Ey oğul" müraciətilə dillər əzbərinə çevrilən poetik örnəyi bütün zamanların düşüncəsini əks etdirmək baxımından

bir əvəzsizlik və təsiredicilik sərgiləyir. "Cəhd qıl, neməti-təmamə yetiş, elm təhsil qıl, məqamə yetiş" deyən ədib on doqquzuncu yüzilliyin qalaqlanan problemləri baxımından onların aradan qaldırılmasını ancaq və ancaq maariflənmə, el öyrənmə ilə mümkünlüyünü göstərirdi.

Seyid Əzim Şirvani yaradıcılığı çeşidli özünəməxsusluqlarla yüksək əxlaqi-dəyərlərin təlqini, həyatı dərk və onun gözəlliklərindən yararlanma düşüncəsinə köklənir. "Bülbül ol, ver bahardan müjdə" deyən sənətkar bunu yaradıcılığı boyu özü üçün bir aparıcı tezis olaraq müəyyənləşdirir. Cəmiyyətin problemlərini, yaşanan acıları müxtəlif kontekstlərdə şeirə gətirən sənətkar tənqidi xarakterli satiraları ilə mövqeyini nümayiş etdirir.

"Nuşirəvan və qonaqpərvər kişi", "İsgəndərin hekayəsi", "İsgəndər və dəli" və s. mənzum hekayələri N.Gəncəvinin "Xəmsə"si əsasında işlənmişdir. Ümumiyyətlə, Şərq ədəbiyyatının zənginlikləri ədibin yaradıcılığı üçün əsaslı qaynaq rolunu yerinə yetirir. Məktəbdarlıq fəaliyyəti zamanı bu nümunələrə daha çox müraciət etməklə gənc nəslin yüksək əxlaqi-dəyərlər üzərində formalaşmasına xüsusi diqqət yetirmişdir.

"Əbu Mənsurun əfvi", "Şah və günahkar", "Harunun bağbanı", "Soltan Məlik şah və qarı", "Düşmənin bağışlanması", "Padşah və dərviş", "Nuşirəvan və qonaqpərvər kişi" və s. mənzum hekayələr hər birisi şairin həyat həqiqətlərinə, yaşanan reallığa bağlanan xalq yaddaşındakı əhvalat və hadisələri təqdimə köklənir. Xeyirxahlıq, ədalətlilik, zülmə, istibdada qarşı dayanmaq, yüksək əxlaqi-fikirlərin müxtəlif formalarda çatdırılması bir istiqamətdə müəllim kimi fəaliyyətinin ümumi mənzərəsini faktlaşdırır.

Səid Ünsizadənin təşəbbüsü ilə açılan yeni tipli məktəb ("Məclis", 1974) Şirvan məktəb tarixinə ayrıca bir haisə olaraq qarşılandı. S.Ə.Şirvani də həmin məktəbə dəvət olunub burada peaqoji fəaliyyətini davam etdirməklə müxtəlif səpkili mənzum hekayələr yazmaqla tədrisə, uşaq ədəbiyyatına öz töhfələrini verdi. Cəlal və Səid Ünsizadə qardaşlarının Tiflisə köçməsi ilə məktəbin bütün ağırlığı S.Ə.Şirvaninin üzərinə düşür. Böyük fədakarlıq nümunəsi göstərən ədib "Rəbiül-ətfal" (1878), "Tacül-kütüb" (1883) dərsliklərini mövcud zərurətdən yaratmışdır. "Aslan və iki öküz", "Xoruz və çaqqal", "Maral", "Dəvə və balası", "Qaz və durna", "Dəvə və uzunqulaq", "Eşşək və arılar", "Süleyman və qarğa", "Ayı və siçan" və s. təmsilləri uşaqların dünyagörüşünü, həyata baxışını, yüksək əxlaqi-dəyərlər üzərində formalaşmasını reallaşdırmaq amalına xidmət edir. Xalq ədəbiyyatının zənginliklərini əhatələyən bu nümunələr bütün aspektlərilə S.Ə.Şirvani ədəbi irsinin yüksək ideallara köklənməsinin göstəricisidir.

**Nəticə/Conclusion**

Seyid Əzim Şirvani on doqquzuncu yüzillik Azərbaycan ədəbiyyatının yetişdirdiyi görkəmli şəxsiyyətlərdəndir. Onun zəngin ədəbi irsi qəzəl, rübai, qitə, müxəmməs, müstəzad, müsəddəs, təkbeyt, qoşabeyt, mənzum hekayə, təmsil, satiraları və s. bütün mahiyyəti və məzmun unikallığı ilə klassik ədəbiyyatın keçib gəldiyi zənginliklərə yüklənərək orijinal sənət düşüncəsini əks etdirməklə diqqət önünə gəlir. Azərbaycan məktəb tarixindəki oynadığı rol ayrıca bir hissədir və bu sahədə gərəkli işlərilə bağlı maraqlı təhlillər [İsmayilova, 2019] aparılmışdır. Dərslikləri, yeni tipli məktəb yaratma işindəki mütərəqqi addımları, eləcə də digər müasirləri ilə bu sahədəki fikir bölüşmələri S.Ə.Şirvaninin milli kimlik örnəyi olaraq sonrakı zamanlarda nümunəyə çevrilməsinin göstəricisidir.

## ƏDƏBİYYAT/REFERENCES

1. Axundov, M.F. (1988). Əsərləri. 3 cilddə, III c. − Bakı: “Elm”. − 388 s.
2. Hüseynov, M. (2008). Dil və poeziya. − Bakı: “Elm”. − 434 s.
3. İsmayılova, M. (2019). XIX əsrin sonu XX əsrin əvvəllərində Şamaxıda təhsil və pedaqoji fikrin inkişafı. − Bakı: “Elm və təhsil”. − 184 s.
4. Qasımzadə, F. (1966). XIX əsr Azərbaycan ədəbiyyatı. − Bakı: “Maarif”. − 488 s.
5. Məmmədov, X. (2005). Köhnə dünyanın sonuncu, yeni dünyanın birinci şairi / Şirvani Seyid Əzim. Seçilmiş əsərləri. Üç cilddə, I cild. – Bakı: “Avrasiya press”. − s.4-32.
6. Namazov, Q. (2007). Azərbaycan uşaq ədəbiyyatı. − Bakı: Bakı Universiteti. − 444 s.
7. Nəbiyev, B. (1976) .Tənqid və ədəbi proses. − Bakı: Azərnəşr. − 188 s.
8. Şirvani, S.Ə. (2005). Seçilmiş əsərləri. Üç cilddə. I cild. – Bakı: “Avrasiya press”. − 400 s.
9. Şirvani, S.Ə. (2005). Seçilmiş əsərləri. Üç cilddə, II cild. – Bakı: “Avrasiya press”. − 384 s.
10. Şirvani, S.Ə. (2005). Seçilmiş əsərləri. Üç cilddə, III cild. – Bakı: “Avrasiya press”. − 288 s.

**Məqalə tarixçəsi**
*Daxil olub* 12.07.2025
*Qəbul edilib* 02.08.2025
*Nəşrə tövsiyə edib* *Razim Məmmədov*
*filologiya üzrə fəlsəfə dokoru, dosent*